**ƏHMƏD DİDAT**

# BİBLİYA MƏHƏMMƏD PEYĞƏMBƏR (S) HAQQINDA NƏ DEYİR

BBK 29
C 16

İsanın (ə) dəvət etdiyi «Allah səltənətinin» yerdə qurun, GƏLƏCƏK DÜNYANIN əsas qanunu və onun insanın mənşəyi barədə dedikləri:

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَىٰ وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا ۚ إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ ۚ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

***«Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır».*** «Hucurat» surəsi, ayə 13.

Bu kitabda bəşəriyyətin bütün problemlərinin həlli var. «O sizə həqiqətə çatdırır» (İsa peyğəmbər).

*İslamın inkişafı üzrə Beynəlxalq Mərkəz*

**Əhməd Didat**
**C16 BİBLİYA MƏHƏMMƏD PEYĞƏMBƏR (S) HAQQINDA NƏ DEYİR?**

C $\frac{0403000000}{M-651(07)-95}$ elansız BBK 29

**NB N**6163
**ISBN** 5-552-01604-1

Azərnəşr, 1995 il.

# BİBLİYA MƏHƏMMƏD PEYĞƏMBƏR (S) HAQQINDA NƏ DEYİR

قُلْ أَرَأَيْتُمْ إِنْ كَانَ مِنْ عِنْدِ اللَّهِ وَكَفَرْتُمْ بِهِ وَشَهِدَ شَاهِدٌ مِنْ بَنِي إِسْرَائِيلَ عَلَىٰ مِثْلِهِ فَآمَنَ وَاسْتَكْبَرْتُمْ ۖ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

***«De: «Bir deyin görək, əgər (bu Quran) Allah dərgahından olsa, siz onu inkar etsəniz, İsrail*[1] *oğullarından da bir şahid (Quranın həqiqiliyinə) onun özü kimisi (Tövrat) ilə şəhadət verib iman gətirsə və siz (yenə ona qarşı) təkəbbür göstərsəniz (zalım olmazsınızmı)? Allah zalımları doğru yola müvəffəq etməz!»***[2]

Bu mühazirənin mövzusu olan «Bibliya Məhəmməd peyğəmbər (s) haqqında nə deyir» yəgin ki, çoxlarını təəcübləndirəcək. Çünki mühazirəçi müsəlmandır. Necə olub ki, məhz müsəlman yəhudi və xristianların Müqəddəs Kitabındakı peyğəmbərlik fikirlərinin şərhçisi olub.

## ROMA PAPASI, YAXUD KİSSİNCER?

Qırx il öncə, cavan yaşlarımda xristian teoloqu (ilahiyyatçısı) müqəddəs Xaytenin silsilə mühazirələrinə

[1] Musa nəzərdə tutulur. Həmin ayəyə (4783-4) aid Yusif Əlinin şərhində bax.

[2] «Əhqaf» surəsi, ayə 10.

gedərdim. Onlar «Royal Siet»də (Kral teatrında) Durbanda (Cənubi Afrika Respublikası) keçirilirdi.

Həmin müqəddəs ata Bibliyadakı peyğəmbərlik məsələləri ilə məşğul olurdu. O inadla isbat edirdi ki, xristian Bibliyası Sovet Rusiyasının yüksəlişini və onun son günlərini qabaqcadan bildirmişdi. Çıxışlarının birində hətta o dərəcəyə çatdı ki, Müqəddəs Kitabda Roma papasına aid fikirlərin də olduğunu söylədi. Dinləyiciləri inandırmağa çalışırdı ki, ƏHDİ CƏDİDİN sonuncu kitabında İlahiyyatcı İohannın vəhyində adı çəkilən «Vəhşi 666» Roma papası Yerdə İsa peyğəmbərin sərdarıdır. Biz müsəlmanlar, katoliklərlə protestantların mübahisəsinə qarışmırıq. Yeri gəlmişkən, qeyd edək ki, son dəfə xristianlar «Vəhşi 666»-nın doktor Henri Kisencer [1] olduğu fikrini söyləmişlər. Xristian alimləri öz «haqq işi» uğrunda mübarizədə zirək və yorulmazdırlar.

Müqəddəs ata Xaytenin mühazirələri məni bir məsələ bairədə düşünməyə vadar etdi: «Roma papası» və «İsrail» də daxil olmaqla Bibliyada müxtəlif şəxsiyyətlər barədə əvvəlcədən fikirlər söylənilib. Yəqin ki, Bibliyada bəşəriyyətin dahi xeyirxah Bibliyada bəşəriyyətin dahi xeyirxah müqəddəs Peyğəmbəri, Məhəmməd (s) barədə də bir söz deyilibdir.[2]

Elə o vaxt cavanlığımda, bu suala cavab axtarmağa başladım. Mən çox geşişlərlə görüşdüm, mühazirələr dinlədim,

---

[1] Bibliyanın xristian şərhiçiləri ingilis əlifbası hərflərinə altılıqla rəqəmi qiymətlər verirlər, onları elə toplayırlar ki, cəmi 666 alınsın, belə ki, a-6, b-12, c-18, d-24 və s. həmin silsilədə 6 əmsalı ona görə seçilib ki, Bibliyada «Vəhşi 666»ya uyğundur. Bu metoodu «Dr. Kissincer» üzərində yoxlamağa cəhd edin.

[2] Müəllif 1975-ci il dekabrın 10-da Siti Hollda Durbnada Şəhər Bələdiyyə binasında başqa bir mövzuda mühazirə ilə çıxış edib - «Dahi Məhəmməd».

Bibliyada gələcəkdən verilmiş xəbərlər barədə əlimə keçən hər şeyi oxuyurdum.

Bu gün mən Hollandiya reformist kilsəsinin pastoru[1] ilə apardığım bir söhbətin məzmununu şərh edəcəyəm.

## ON ÜÇ – UĞUR ƏDƏDİDİR

Müqəddəs Peyğəmbər Məhəmmədin (s) anadan olması gününün bayram edilməsi münasibətilə məni mühazirə oxumaq üçün Transvaala[2] dəvət etmişdilər. Bilirdim ki, həmin ayələtdə çoxları, hətta mənim həmtayfalarım da afrikaans dilində danışırlar. Buna görə adamlarla ünsiyyətimin sadə və asan olması üçün həmin dili bir qədər öyrənmək fikrinə düşdüm. Telefon sorğu kitabını açıb afrikaans dilində tədbirlər keçirilən kilsəyə zəng vurdum. Keşişlərə müraciət edib onlarla söhbət etmək niyyətimi bildirdim. «Üzürlü» bəhanələr gətirərək mənimlə söhbətdən imtina edirdilər. Lakin on üçüncü zəngim mənə ləzzət verdi, yüngünlük gətirdi. Pastor Van Xeerden gündüz onun evində mənimlə görüşməyə razılıq verdi. Transvaala gedəcəyim şənbə günü idi.

O məni dostcasına və mehribanlıqla eyvanda qarşıladı. Məndən Azad ştatın sakini olan yetmiş yaşlı qayınatasının söhbətimizdə iştirakına etirazının olub-olmamasını soruşdu. Mən etiraz etmədim. Hər üçümüz pastorun kitabxanasına keçdik.

---

[1] Orijinalda (afrikaans dilində buna «keşiş», «pastor», «ata» kimi müraciət sözləri uyğundur).

[2] Cənubi Afrika Respublikası əyalətlərindən biri.

## BƏS NİYƏ HEÇ NƏ?

Mən bu sualı verdim: «Bibliya Məhəmməd (s) barədə nə deyir?» Tərəddüd etmədən pastor cavab verdi: «Heç nə!» Mən soruşdum: «Niyə heç nə? Sizin şərhinizə görə Bibliyada Sovet Rusiyasının yüksəlişi, onun son günlərinin və hətta Roma katoliklərinin papası haqda bu qədər şox danışılır». Pastor cavab verdi: «Elədir, lakin orada Məhəmməd barədə heç nə yoxdur». Mən yenə: «Bəs niyə heç nə?» deyə soruşdum və sözümə davam etdim: «Yəgin ki, var! Məhz bu adamın, Məhəmmədin (s) sayəsində əvvəla İsanın möcüzəli doğulması, ikincisi İsanın Məsih[1] olması, üçüncü İsanın Tanrının İradəsi ilə ölüləri diriltməsinə, cüzamlılara və kor doğulanlara şəfa verməsinə inanan miliyonlarla möminlərin cəmiyyəti meydana gəlmişdir».

İsa və onun anası Məryəm barədə çox gözələ fikirllər söyləyən bu dahi rəhbər haqqında həmin kitabda (Bibliyada) mütləq nə isə deyilməlidir.

Söhbətimizi dinləyən Azad ştatdan olan qoca dilləndi: «Oğul, mən Bibliyanı son əlli il ərzində oxumuşam, o heç olmasa bircə yerdə yad edilsəydi, bu barədə mən bilərdim».

## ÖZ ADI İLƏ HEÇ BİRİ

---

[1] «Məsih» sözü ərəb və qədim yəhudi dilində «Məsəh», yəni «sürtmək», «yaymaq» sözlərindən götürülüb. Dini mənası - «O kəs ki, sürtülüb (hopdurulub)», «Sürtülümüş». Kahinləri yüksək rütbəyə, hökmdarları çarlığa, taxta yüksəldəndə «sürtülmə» mərasimi keçirilirdi. Məsihin tərcüməsi kimi verilən «Xristos» sözü «Allah» demək deyildir. Hətta bütpərəst Kir Bibliyada Xrist adlandırılır (İsaya, 15:1).

Mən soruşdum: «Sizcə Əhdi Əqiqdə İsanın gəlişi barədə söylənmiş yüzlərlə ifadəyə rast gəlirikmi?» Pastor dedi: «Yüzlərlə yox, minlərlə!» Mən dedim: «Əhdi Əqiqdə İsa peyğəmbərin gəlişi barədə olan «minlərlə» ifadəni şübhə altına qoymuram. Ona görə ki, bütün müsəlman aləmi onun gəlişini isbatsız qəbul edib. Biz müsəlmanlar İsanı yalnız Məhəmmədin (s) nüfuzu sayəsində de fakto (gərcək olaraq) qəbul etmişik. İndi dünyada Məhəmməddin (s) bir milyarddan az olmayan tərəfdarı İsa peyğəmbəri sevir, ona hörmət edir. Bunun üçün Bibliya dialektikası ilə xristianların müsəlamanları inandırmasına ehtiyac yoxdur. Lakin siz «minlərlə» mənbələrdən heç olmasa birini göstərə bilərsinizmi ki, orada İsa öz adı ilə adlandırılsın? «Xristos» sözü «Məsih» kimi tərcümə olunur, bu isə ad deyil. Heç olmasa bir peyğəmbərlik varmı ki, Məsihin İsa olacağı, fərz olunan atasının xarrat İosif olacağı; onun İrod padşahı dövründə doğulacağı və s. söylənsin? Yox! Bu cür dəqiq fikirlər yoxdur! Belə isə Sizin «minlərlə» peyğəmbərliyin məhz İsaya aid olması nəticəsinə gəlməyiniz neyə əsaslanır?»

## PEYĞƏMBƏRLİK NƏDİR?

Pastor cavab verdi: «Bilirsinizmi, peyğəmbərlik gələcəkdə baş verə biləcək nəyinsə sözdə ifadə edilməsidir. Bu həqiqətən baş verəndə, biz həmin peyğəmbərliklərdə keçmişdə deyilənlərin sonradan həqiqətən həyata keçdiyini görürük». Mən qeyd etdim ki, «Bax, Siz indi dərindən, yaxşı düşünərək, mühakimə yürüdürsünüz, nəticələr çıxarırsınız...» O razılaşdı və: «Bəli» - dedi. Mən təklif etdim: «İnsanın gerçəkliyini təsdiq etmək üçün «minlərlə» peyğəmbərlikdən bu cür istifadə

edilirsə, onda nə üçün biz həmin usulu Məhəmmədə (s)[1] tətbiq etməyək». Pastor razılaşdı ki, bu adalətli təklifdir, problemə məntiqi yanaşmaq üsuludur.

Mən ondan xaiş etdim ki, Bibliyanın ilk beş kitabının sonuncusunu açsın, 18-ci fəsildə, 18-ci misraya baxsın. O belə də etdi. Mən bu misranı afrikaans dilində əzbər söylədim, ona görə ki, mənim məqsədim Cənubi Afrikada[2] hökmran danışıq dilində bir qədər məşq etmək idi.

«N PROFEET SAL EK BİR XULLE VERVEK UİT DİE MİDDE VAİ XULLE BROERS, SOOS Tİ İS, EN EK SAL Mİ VOORDE İN Sİ MOND LE EN Xİ SAL XULLE SE ALLES VAT EK XOM BEEL» (Beşinci kitab, 18:18)

Tərcüməsi belə səslənir: «Mən onlara Peyğəmbəri sənin kimi onların öz qardaşları içərisindən yüksəldərəm, və Öz sözlərimi Onun dili ilə ifadə edərəm, və Mən hər nə hökm etsəm o da onu deyəcək».

## MUSAYA BƏNZƏR PEYĞƏMBƏR

Afrikaans dilində misraları bir qədər qətiyyətsizliklə söylədiyim üçün üzr istədim. Pastor mənə dedi ki, çox gözəl

---

[1] «Solomonun (Suleymanın) nəğmələri» nəğməsinin 5:16 misrasında Məhəmməd (s) öz adı ilə xatırlanır.
Orada qədim yəhudi Muhammudim sözündən istifadə olunur. «İm» sonluğu yüksək hörmət və etiram məqsədilə (müraciətdə) çoxluq cəmin ifadəsidir. «İm» sonluğunu ayıranda Muhammud adını alırıq, bu da «son dərəcədə qəşəng» kimi tərcümə olunur. İngilis kanonik variantında 1611-ci il Authorized Version, yaxud yəni «Yeganə tərif olunan» (yeganə təriflənməyə layiq görülən), yəni Məhəmməd (s).

[2] Bu kitabçanı istənilən dilə tərcümə edəndə, lütfən, afrikaans dilində olanları yerli dialektdə verin. Bibliyadan sitatları sərbəst tərcümə etməyə çalışmayın. Bibliyanın həmin dildə olan variantından istifadə edin və öz tərcümənizə olduğu kimi köçürün.

alındı. Mən soruşdum: «Bu peyğəmbərliklə kim nəzərdə tutulur?» Azacıq belə tərəddüd etmədən o cavab verdi: «İsa!» Mən şübhələndiyimi bildirdim: «Nə üçün İsa?! Onun adı orda çəkilmir». Pastor cavab verdi: «Bir halda ki, peyğəmbərlik dedikdə nəyin baş verəcəyini (olacağını) qabaqcadan söyləmək nəzərdə tutulur. Biz buna görə də inanırıq ki, həmin sətirlərdə İsanın dəqiq təsviri verilib. Həmin peyğəmbərliyin ən vacib sözlərinə fikir verin: SOOS İİ İS (sənin kimi), SƏNƏ OXŞAR, yəni Musaya oxşar, İsa isə Musaya oxşardır?» Cavab belə oldu: «Əvvəla Musa yəhudi olub, İsa da yəhudi olub; ikincisi Musa peyğəmbər olub və İsa da peyğəmbər olub. Deməli İsa Musaya oxşardır və məhz bunu Tanrı əvvəlcədən Musaya şamil etmişdi: «SOOS İİ İS». Mən soruşdum: «Siz Musa ilə İsa arasında hər hansı başqa oxşarlıq əlamətləri göstərə bilərsiniz?!» Pastor boynuna aldı ki, göstərə bilməz. Mən söhbətimi davam etdirdim: «Əgər Musanın beşinci kitabının 18-ci fəslinin 18-ci bölməsində göstərilən namizədlər yalnız bu iki əlamətə görə müəyyən olunurlarsa, bu halda həmin meyarlar Bibliyada Musadan sonra gələn bütün şəxslərə uyğun gələ bilər: Süleymana, İsayeyə, İezekilə, Danilə, Malahiyə, Yəhyaya və s. Çünki onların hamısı yəhudi olublar və həm də peyğəmbər olublar. Bəs nə üçün peyğəmbərliyi yalnız İsaya deyil onların hər hansı birisinə şamil etməyək? Nə üçün yalnız bir tərəfə meyl edək?» Pastor susurdu. Mən təklif etdim: «Görürsünüzmü, mən hesab edirəm ki, İsa ən az dərəcədə Musaya oxşardır, əgər mən səhv edirəmsə mən istərdim ki, mənim səhvimi düzldəsiniz».

## ÜÇ FƏRQ

Mən belə bir fikir söylədim: «Əvvəla İsa Musaya oxşar deyil, çünki sizin təsəvvürünüzə görə, «İsa - Allahdır» Musa Allah deyil, düzdür?» Pastor təsdiq etdi: «Bəli». Mən dedim: «Buna görə İsa Musaya oxşar deyil! İkincisi, Sizin fikrinizcə «İsa dünyanın qəbahətləri üzündən öldü», Musanın isə dünyanın qəbahətləri üzündən ölməsinə ehtiyac yox idi. Düzdür?» O yenə də razılaşdı: «Bəli» Mən dedim: «Buna görə İsa Musaya bənzər deyil. Üçüncüsü, sizin təsəvvürlərinizə görə «İsa üç günlüyə cəhənnəmə enmişdi», Musa üçün belə zərurət yox idi. Düzdür?» Pastor itaətkarlıqla təsdiq etdi: «Bəli». Mən yekunlaşdırdım: «Buna görə İsa Musaya oxşar deyil!»

Mən sözümü davam etdirdim: «Müqəddəs ata, lakin bunlar təkzibedilməz dəlillər deyil, o qədər də etibarlı olmayan dəlillərdir, əsil dəlillər deyil. Bunlar sadəcə olaraq heç uşaqların da qəbul etməyəcəyi bir etiqaddır. Gəlin çox sadə, çox asan bir şeyi müzakirə edək, belə ki, hətta sizin balaca uşaqlar belə bu müzakirəni dinləsələr, onu asanlıqla və yaxşı başa düşərlər, razısınızmı?» Pastor bu təklifi çox bəyəndi.

## ATA VƏ ANA

**1.** «Musanın anası ilə atası var idi. Məhəmmədin (s) də anası və atası var idi. İsanın isə yalnız anası olmuşdur, onun atası olmamışdı. Düzdür?» O dedi: «Bəli». Mən nəticə söylədim: «DAAROM İS İEESUSUS NİE SOOS MOZES NİE, MAAR MUXAMMAD İS SOOS MOZES!» Bu sözlərin mənası: «Buna görə İsa Musaya oxşar deyil, lakin Məhəmməd Musaya (ə) oxşardır». Oxucu yəgin başa düşdü ki, bir az əvvəl məşq etmək məqsədilə mən afrikaans dilində danışırdım.

Bundan sonra mən mühazirəmdə həmin dildən istifadə etməyəcəyəm.

## DOĞULUŞUN MÖCÜZƏSİ

**2.** Musa və Məhəmməd (s) normal, təbii şəkildə, yəni kişinin və qadının fiziki yaxınlığı nəticəsində doğulmuşdular. Lakin İsanın törənməsi möcüzə idi. Siz asanlıqla yada sala bilərsiniz ki, Matfeyin incilində (1:18) bu barədə nə deyilir: «...Onlar (xarrat İosif və Məryəm) evlənməzdən əvvəl məlum oldu ki, onun bətnində Ruhulqüdsdən olan uşaq vardır» və Müqəddəs Luka deyir ki, Müqəddəs oğlunun doğulacağı ona (anaya) məlum olanda Məryəm çaşıb qalmışdı: «...Bu necə olacaq, ərimi tanımadığım halda?» Mələk cavabında ona dedi: «Ruhulqüdüs səni tapar və Haqq-Təalanın gücü səni qoruyar (Luka 1:34-35). Müqəddəs Quran ecazkar doğuluşu daha yüksək ifadələrlə təsdiqləyir. Məryəm qanunauyğun cavab verdi:

قُلْ أَرَأَيْتُمْ إِنْ كَانَ مِنْ عِنْدِ اللَّهِ وَكَفَرْتُمْ بِهِ وَشَهِدَ شَاهِدٌ مِنْ بَنِي إِسْرَائِيلَ عَلَىٰ مِثْلِهِ فَآمَنَ وَاسْتَكْبَرْتُمْ ۖ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ

***«Ey Rəbbim! Mənə bir insan əli toxunmadığı halda necə uşağım ola bilər?» – dedikdə, (Allah) buyurdu: «(Bəli) elədir, (lakin) Allah istədiyini yaradır. O, bir işin əmələ gəlməsini qərara aldıqda, ona ancaq «Ol!» deyər, o da (dərhal) olar».***[1] Toxumların insana, yaxud heyvana daxil edilməsinə Rəbbin

---

[1] «Əhqaf» surəsi, ayə 10.
Lütfən Quranı açın («Ali-İmran» surəsi, ayə 42 və «Məryəm» surəsi, ayə 16) və orada İsamın doğuluşu barədə vəhyləri və onlara aid şərhləri oxuyun. İsanın və onun anasının İslamda nə qədər yüksək mövqe tutduqlarını xristian dostlarınızın diqqətinə çatdırın.

ehtiyacı yoxdur. O arzu edilən kimi həmin anda arzu yerinə yetir. İsanın doğuluşu barədə müsəlmanların təsəvvürləri belədir. (Mən bizim ən böyük şəhərin Bibliya cəmiyyətinin başçısına Quranın və Bibliyanın məlumatlarını təqdim etdim və soruşdum, bunlardan hansına o öz qızı üçün üstünlük verərdi, o başını aşağı salıb cavab verdi: «Quranın məlumatına»). Qısaca desək, mən pasportdan soruşdum: «Musadan və Məhəmməddən (s) fərqli olaraq İsa möcüzəli doğulmuşdumu?» O qururla cavab verdi: «Bəli». Mən dedim: «Buna görə İsa Musaya oxşar deyil, lakin Musaya Məhəmməd (s) oxşadır və Tanrı Musaya deyir (Beş kitab, 18:18) «Sənin kimisini» (Sənə oxşarı, Musaya oxşarı) və Məhəmməd (s) Musaya oxşardır.

## NİGAH ƏLAQƏLƏRİ

**3.** «Həm Musa, həm də Məhəmməd (s) evləndilər və uşaq törətdilər. Lakin İsa bütün ömrü boyu subay olmuşdu. Düzdür?» Pastor dedi: «Bəli». Onda mən yenə bildirdim: «Buna görə İsa Musaya oxşar deyil, lakin Musaya Məhəmməd (s) oxşardır».

## İSANI ÖZ XALQI QƏBUL ETMƏYİB

**4.** «Musa və Məhəmməd (s) hələ sağlıqlarında öz xalqları tərəfindən peyğəmbər kimi tanınmışdılar. Şəksiz yəhudilər Musanı son dərəcə əsəbiləşdirirdilə (onlar səhrada şikayət etmişlər), lakin bir xalq kimi qəbul etdilər ki, Musanı onlara Tanrı göndərib. Ərəblər də Məhəmmədin (s) həyatını dözülməz etmişdilər. Onun başına çox oyun gətirmişdilər. Məkkədəki on üç il müddətdəki çağırışlarına baxmayaraq o, doğma

şəhərindən getməyə məcbur olmuşdu. Lakin ölmündən əvvəl ərəblər bir millət kimi onu Allahın elçisi olaraq qəbul etmişlər. Bibliyaya görə O (İsa) «Özününkülərinin yanına gəldi, özününkülər də onu qəbul etmədilər» (İohanna 1:11). «Hətta bu gün, o vaxtdan iki min il keçdikdən sonra belə onun xalqı – yəhudilər onu rədd edirlər. Düzüdür?» Pastor dedi: «Bəli». Mən dedim: «Odur ki, İsa Musaya oxşar deyil, lakin Musaya Məhəmməd (s) oxşardır».

## BU ALƏMDƏN OLMAYAN SƏLTƏNƏT

**5.** Musa və Məhəmməd (s) həm peyğəmbər, həm də hökmdar olublar. Peyğəmbər dedikdə, mən elə adamı nəzərdə tuturam ki, o, ilahi vəhyi alır, həmin əmrləri, hökmləri dərhal olduğu kimi öz ümmətlərinə çatdırır, təbliğ edir. Hökmdar o adamdır ki, o, öz adamlarının həyatına və ölümünə cavabdehdir. Fərqi yoxdur, o tac daşıyıcısıdır, yaxud çar, yaxud padşah kimi müraciət edirlər. Əgər adamları ölümə məhkum etmək səlahiyyəti varsa, o – hökmdardır. Musa belə bir hüquqa malik idi. Sabbatda (şənbə günü) odun yığan israillinin əla keçməsi yadınızdadır? Musa əmr etdi ki, onun ölənəcən daşlasınlar. Bibliyada başqa cinayətlər də göstərilib ki, onlara görə Musa yəhudiləri ölüm cəzası ilə cəzalandırırdı. Eləcə də Məhəmməd (s) həmqəbilələrinin həyatı və ölümünə sərəncam verirdi. Bibliyada elə adamlar göstərilib ki, onlara yalnız peyğəmbərlik qabiliyyəti verilmişdi, lakin ilahi vəhyləri həyata keçirmək iqtidarında olmamışlar. Üzərinə düşən vəzifələr qarşısında aciz qalan belə müqəddəslər sırasında Lut, İohanna, Daniil, Yezdra və Yəhya olmuşlar. Onlar yalnız Risalələri çatdırmağa qadir olublar, lakin qanunları həyata keçirmək

imkanları olmayıb. Təəsüf ki, mömin İsa peyğəmbər də onlar kimi olub. Xristian İncili bunu bütün aşkarlığı ilə təsdiq edir: mövcud cəmiyyətin özüllərinin dağıdılmasına çağırışda, qiyama çağırışda günahlandıraraq Roma canişini Pontiy Pilatın yanına gətirilən İsa inamla özünü müdafiə edirdi və uydurma ittihamları rədd edirdi: «İsa cavab verirdi: «Mənim səltənətim bu aləmdən deyil; hökmranlığım bu aləmdən olmuş olsaydı, mənim xadimlərim (dinə ibadət edənlər) mənim üçün fəaliyyət göstərərdilər ki, yəhudilər mənə xəyanət etməsinlər, lakin indi mənim hökmranlığım bu aləmdən deyil» (İohanna 18:36). «Elə bu da Pilatı (bütpərəsti!) inandırmışdı ki, İsanın huşu tam yerində olmaya bilərdi, lakin onun hakimiyyətinə təhlükə təəssüratı yaratmırdı. İsa yalnız mənəvi (ruhi) hökmranlıq iddiasında idi. Başqa sözlə o, özünü yalnız peyğəmbər hesab edirdi. Düzdür?» Pastor dedi: «Bəli». Mən dedim: «Buna görə İsa Musaya oxşar deyil, lakin Məhəmməd (s) Musaya oxşardır».

## HEÇ BİR YENİ QANUN

**6.** «Musa və Məhəmməd (s) öz xalqlarına yeni qanunlar və təlimatlar gətirdilər. Musa yəhudilərə On hökmü verməklə kifayətlənməyib, o həm də hökmləri icra etmək üçün müfəssəl öyüdlər də vermişdi. Məhəmmədin (s) qismətinə cəhalət və əxlaqsızlığa batmış xalq düşmüşdü. Bu adamlar öz analıqları ilə evlənirdilər; öz qızlarını diri-diri basdırırdılar; sərxoşluq, əxlaq pozğunluğu, qumar oyunu onlar üçün adi bir iş idi. Qibbon özünün «Roma imperiyasının zəifləməsi və dağılması tarixi» əsərində İslamdan əvvəlki dövrün ərəblərini belə təsvir edir: «İnsan heyvanı, demək olar ki, hissiyyatsız, başqa

heyvanlardan az fərqlənir. O dövrün «insanı» ilə «heyvanı» arasında fərqi çətinliklə tapmaq olardı. Bunlar insan qiyafəsində olan vəhşilər idi».

Tomas Karlayın sözləri ilə desək, Məhəmməd (s) onları miskin barbarlardan «işıq və bilik daşıyıcıları» səviyyəsinə yüksəltdi. «Bu ərəb xalqı üçün bu zülmətdən işığa doğru doğulmaq demək idi. Bununla ərəblər ilk dəfə olaraq başqalarının gözündə canlandılar. Bundan əvvəl bəşərin yaranmasından başlayaraq heç kəsin nəzərini özünə cəlb etmədən öz səhralarında sərgərdan gəzən kasıb, çoban xalq! Diqqqət yetirin, əvvəllər nəzərə çarpmayan bütün dünyaya bəlli olur, aza malik olana bəşər əzəməti nəsib olur. O vaxtan cəmi yüz il keçib, ərəblər Qərbdə Qrenadaya qədər, şərqdə Dehliyə qədər çatdılar. Ərəbistan, igidlik, əzəmət parıltısı ilə dünyanın nəhəng fəzalarını işıqlandırır...» Məsələ ondadır ki, Məhəmməd (s) öz həmtayfalarına bundan əvvəl onlarda olmayan Qanun və İntizam Qaydalarını verdi.

İsaya gəldikdə isə deməliyik ki, yəhudilər də onun (yəni İsanın) yalançı (fırıldaqçı) ola biləcəyi və onların təliminin mənasını pozmaq, saxtalaşdırmaq arzusunda ola biləcəyindən şübhələnəndə, onları bu fikirdən döndərmək, yəni din gətirmədiyinə onları inandırmaq üçün İsa böyük əmək sərf etmişdi. Mən onun şəxsən öz sözlərini sitat gətirirəm: «Elə bilməyin ki, mən qanunları, peyğəmbərləri pozmağa gəlmişəm; pozmaq gəlməmişəm mən. Lakin icra etmək üçün. Çünki həqiqətən deyirəm sizə: Nə qədər ki, göy və yer var, qanunda heç bir əlamət, heç bir yola dəyişlməz, hamısı yerinə yetməyənə qədər». (Matf: 5:17-18). Başqa sözlə o heç bir yeni qanunlarla, yaxud yeni təliqələrlə gəlməyib. O yalnız köhnə qanunu icra etməyə gəlib. O riyakarlığa əl atmaqla, yalançılıqla

onu insan – Tanrı kimi yəhudilərin onu qəbul etməyini, heç cür hiylə vasitəsilə onlara yeni din öyrətməyi məqsəd qoymamışdı. Yox! Tanrının bu elçisi heç vaxt Tanrının dinini devirmək üçün bu cür yaramaz hərəkətlərə əl atmazdı. O özü qanun icra edirdi. O, Musanın hökmlərinə riayət edirdi və Sabbata hörmət edirdi. Heç vaxt, heç bir yəhudi İsanı barmaqla göstərərək ona irad tutmamışdı «sən nə üçün oruc tutmursan?» Yaxud «çörəyi əlinlə bölməzdən əvvəl niyə əlini yumursan?» Bunda yəhudilər həmişə onun tələbələrini günahlandırırdılar, lakin İsanın özünü heç vaxt. Çünki, o, vicdanlı bir yəhudi kimi ondan əvvəlki peyğəmbərlərin qanunlarına hörmət bəsləyirdi. Müxtəsər desək, yeni din yaratmamışdı və yeni qanunlar gətirməmişdi, bunu Musa və Məhəmməd (s) etmişdilər. Doğrudurmu?» - deyə mən pasportdan soruşdum və o cavab verdi: «Doğrudur». Mən dedim: «Odur ki, İsa Musaya oxşar deyil, lakin Musaya oxşar Məhəmməddir (s)».

## ONLAR NECƏ ÖLDÜLƏR?

**7.** «Musa da, Məhəmməd (s) də öz əcəli ilə ölüblər, lakin xristian şəriətinə görə İsa çarmıxa çəkilmişdi.[1] Doğrudur?» Pastor dedi: «Bəli» - deyə sözlərimi təsdiq etdi. Mən qeyd etdim: «Buna görə də İsa Musaya oxşaya bilməz, lakin Musaya Məhəmməd (s) oxşayır».

## GÖYLƏRDƏ RAHATLAMA

[1] Həmin müəllifin «Çarmıxa çəkmə» - edam, yaxud uydurma» kitabçasını rus dilində sifariş edin (pulsuz göndərilir).

**8.** «Həm Musa, həm də Məhəmməd (s) torpaqda basdırılıblar, lakin sizin dini təlimata görə İsa göylərdə (səmada) rahatlanır. Doğrudur?» Pastor razılaşdı. Mən yekunlaşdırdım: «Buna görə də İsa Musaya oxşar deyil, lakin Musaya Məhəmməd (s) oxşardır».

## İSMAYILIN İLKİNLİYİ

Bu halda ki, pastor mənim hər bir dəlillərimlə razılaşırdı, ona aşağıdakı sözlərlə müraciət etdim: «Müqəddəs ata, hələlik mən peyğəmbərliyin yalnız kiçik bir hissəsini - «Sənin kimi» - («sənə bənzəri», «Musaya bənzəri») ifadəsini isbat etdim. Peyğəmbərliyin özü bu ayrıca ifadədən xeyli genişdir. O belə səslənir: «Mən onlara sənin kimi onların qardaşları sırasından peyğəmbər yüksəldərəm...» Musaya və onun xalqına, yəhudilərə, müraciət bir milli-etnik təşkilata kimi ünvanlanıb. Bu halda onların «qardaşları» şübhəsiz ərəblərdir. Gördüyünüz kimi, Müqəddəs Bibliya İbrahimi «Tanrının dostu» (Xəlil) kimi təsvir edir. İbrahimin iki arvadı olub – Sara və Həcər. Həcər İbrahimə oğul doğdu. Onun ilkinini, - «...və Avram[1], ad verdi öz oğluna, Həcərdən doğulmuşa: İsmayıl». (Varlıq 17:25) Tanrı İbrahimlə kəsdiyi əhdi saxlayana qədər - üç yaşına qədər İsmayıl onun yeganə övladı idi. O İbrahimə daha bir oğul bağışladı, Saradan olan İsaq adında, hansı ki, özünün İsamayıl qardaşından xeyli cavan idi!»

[1] Bibliyaya görə Tanrı onun adını dəyişənə qədər Avraam, Avram (İbrahim) adlanırdı.

## ƏRƏBLƏR VƏ YƏHUDİLƏR

İsmayıl və İsaq bir atanın oğullarıdırsa, deməli, onlar qardaşdırlar. Yəhudilər – İsaqın övladlarıdır, ərəblər isə İsmayılın övladlarıdır. Buna görə onlar qardaşdılar. Bibliya bəyan edir: «...Yaşayacaq o (İsmayıl) bütün öz qardaşlarının nəzəri qarşısında (Varlıq 16:12)». «...və vəfat etdi o, və öldü, və öz xalqına yaxınlaşdı». «...O məskən saldı bütün öz qardaşlarının nəzəri qarşısında» (Varlıq 25:17-18). İsaqın uşaqları əslində İsmayıldan olanların qardaşlarıdır. Eləcə də Məhəmməd (s) İsmayıldan olanların qardaşlarındandır, çünki o, İbrahimin oğlu İsmayılın nəslindəndir. Peyğəmbərlikdə tam dəqiq deyildiyi kimi: «Öz qardaşlarının içərisindən» (Beş kitab 18:18). Bu ifadədə peyğəmbərlik aydın göstərir ki, Musaya oxşar olası gələcək peyğəmbər «İsrail uşaqlarının» və yaxud «onların öz içərilərindən» deyil, onların qardaşları içərisindən yaranmalı idi. Buna görə də Məhəmməd (s) onların qardaşları nəslindən idi!»

## SÖZLƏRİN DİLLƏ İFADƏSİ

«Sonra peyğəmbərlik deyir: «...Öz sözlərimi onun dili ilə ifadə edərəm (ağzına yerləşdirərəm)...» Mən öz sözlərimi sizin diliniz ilə ifadə edərəm (ağzınıza qoyaram) dedikdə nəyi nəzərdə tuturlar? Görürsünüzmü, müqəddəs at, mən əvvəlcə sizdən xahiş etdim ki, Bibliyanın ilk beş kitabından sonuncusunu açasınız (Fəsil 18:18) və mən Sizdən xahiş etsəydim ki, onu oxuyasınız və Siz oxusaydınız demək olardı ki, mən öz sözlərimi Sizin dil-dodaqlarınıza qoyurdum?» Pastor cavab verdi: «Yox». Sözümü tamamlayaraq dedim:

«Əgər mən Sizə heç bilmədiyiniz bir dili, məsələn ərəb dilini öyrədəsi olsaydım, mən Sizidən xaiş edərdim ki, mənim dediklərimi mənim ardımca oxuyasınız, yaxud təkrar edsiniz:

قُلْ هُوَ اللَّهُ أَحَدٌ اللَّهُ الصَّمَدُ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ

***«De: «O Allah birdir (heç bir şəriki yoxdur); Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! O, nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!»***[1]

Belə alınmazdımı ki, Sizin tələffüz etdiyiniz mahiyyəti, Sizə məlum olmayan başqa dilin sözlərini mən, sanki Sizin ağzınızda yerləşdirirəm». Pastor razılaşdı ki, əlbəttə bu belə də olardı. Onda mən dedim ki, Qüdrətli tanrının Məhəmmədə (s) bəxş etdiyi Müqəddəs Quranın sözləri, vəhylər tamamilə həmin qaydadan açıqlanıb.

Tarix bizə bildirir ki, o vaxt Məhəmmədin (s) cəmi qırx yaşı vardı. Müsəlman Ramazan ayının iyirmi yeddinci keçəsini o Məkkədən üç mil şimalda, Həra mağarasında keçirirdi. Məhz orada mağarada Cəbrail Məhəmmədə (s) onun ana dilində əmr edir: «Oxu!», yaxud «Danış!», yaxud «Təkrarla!» Məhəmməd (s) vahimə içərisindədir və özünü itirmiş halda cavab verir: «Mənim savadım yoxdur, mən savadsızam!» Mələk ona ikinci dəfə əmr edir – nəticə eynidir. Nəhayət ki, Məhəmməd (s) ondan nəyin tələb olunduğunu başa düşür: «Təkrarlamaq», «təkrar danışmaq». Və o sözləri dil-dodaqlarına qoyduğu kimi tam dəqiqliyi ilə təkrarlayır:

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ خَلَقَ الْإِنْسَانَ مِنْ عَلَقٍ اقْرَأْ وَرَبُّكَ الْأَكْرَمُ الَّذِي عَلَّمَ بِالْقَلَمِ عَلَّمَ الْإِنْسَانَ مَا لَمْ يَعْلَمْ

[1] «İxlas» surəsi, ayə 1-5.

***«Yoxdan yaradan Rəbbinin adı ilə (bismillah deyərək) oxu! O, insanı laxtalanmış qandan yaratdı. (Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi.*** [1] ***(O Rəbbin ki) insana bilmədiklərini öyrətdi».***[2]

Bunlar Məhəmmədə (s) nazil olan ilk beş ayə idi və müqəddəs Quranın 96-cı surəsi olan «Ələq» surəsi həmin ayələrlə başlanır.

## ETİMADA LAYİQ DƏLİL

Mələk uzaqlaşan kimi Məhəmməd (s) cəld evə yüyürdü. Vahimədən başdan ayağa qədər tər axıdaraq istəkli arvadı Xədicəyə yalvarırdı ki, onun «üstünü basdırsın». O uzandı və gizləndi, arvadı isə onu mühafizə edirdi. İradəsi özünə gələn kimi Məhəmməd (s) gördükləri və eşitdiklərini arvadı Xədicəyə danışdı. O Məhəmmədi (s) inandırırdı ki, dediklərinə inanır və Allah yol verməzdi ki, onun (Xədicənin) ərinin başına nə isə qorxulu bir hadisə gəlsin. Məgər bu dələduzun, fırıldaqcının etirafına bənzəyirmi? Heç elə bir fırıldaqçı ola bilərmi ki, Rəbbin mələyi onun qarşısında yuxarıdan gələn Risalə ilə durduğu vaxt qorxudan dəhşətə gəldiyini, onun vahimə basdığını və qan-tər içində arvadının yanına, evə qaçdığını boynuna alsın? Hər şeydən şübhələnən adama da aydın olmalıdır ki, Məhəmmədin (s) reaksiyası və etirafı – pak, səmimi adamın – Haqqın adamının – pak, doğruçu, düz danışanın reaksiyası və etirafı idi.

---

[1] «Qələm» ərəb dilində «yazmaq üçün alət» (qələm, qələmucu, karandaş) deməkdir.

[2] «Ələq» surəsi, ayə 1-5.

Peyğəmbərlik həyatının sonrakı iyirmi üç ili ərzində «onun dil-dodaqlarına» sözlər qoyulurdu və onları tələffüz edirdi. Qurana gəldikcə bu sözlər onun sadiq tələbələrinin – ardıcıllarının ruhlarına və ürəklərinə daxil edilirdi. Məhəmmədin (s) ölümü ərəfəsində bu sözlər – məlumatlar indi biz müqəddəs Quranda gördüyümüz ardıcıllıqla düzülmüşdür.

Bizim müzakirə etdiyimiz peyğəmbərlikdə əvvəlcədən söyləndiyinə tam uyğun olaraq həmin sözlər (vəhylər) tam doğruluğu ilə əks olunub: «Öz sözlərimi onun dilində (ağzına) yerləşdirərəm» (Beş kitab 18:18)

## SAVADSIZ PEYĞƏMBƏR

Sonralar Hira mağarasında Məhəmmədin (s) başına gələn əhvalat Cəbəlunnur (İşıq dağı) kimi tanınmış, həmin ilk vəhyə reaksiyası – Bibliyanın daha bir peyğəmbərliyinin dəqiq həyata keçməsi idi. İsayi kitabının 29-cu fəslinin 12-ci misrasında biz oxuyuruq: «Və verirəm kitabı (əl-Kitab, əl-Quran - «mütaliə», «deklamasiya») o kəsə, kim ki, oxumağı bacarmır. Savadsız peyğəmbər olan adama, avam adama, «Və deyirəm: «Oxu onu!» (Sənə üz tutub deyirəm) «Və o cavab verir: «Mən oxumağı bacarmıram». Cəbrayıl «Oxu!» əmrini verəndə Məhəmmədin (s) Ruhulqüdsə iki dəfə dediyi sözlərin ən dəqiq cavabı belədir: «Mən oxumağı bacarmıram». İcazə verin bu qeydləri heç bir qeyd və şərh vermədən sitat kimi söyləyim, biz bunu 1611-ci il anqlikan variantından olduğu kimi veririk, çünki bu şəkildə daha geniş məlumdur. «Kitabı o kəsə verirəm ki, o oxumağı bacarmır və deyirəm: «Oxu onu!» və o cavab verir: «Mən oxumağı bacarmıram» (İsayi 29:12).

Yeri gəlmişkən, qeyd etmək olar ki, xristian erasının 6-cı əsrində Məhəmmədin (s) yaşayıb peyğəmbərlik etdiyi dövrdə ərəb Bibliyası[1] hələ yox idi! Bundan əlavə Məhəmməd (s) tamamilə savadsız və təhsilsiz idi. İnsanlardan heç kəs ona heç bir söz öyrətməmişdi. Onun müəllimi Xaliq id.

وَمَا يَنْطِقُ عَنِ الْهَوَىٰ إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَىٰ عَلَّمَهُ شَدِيدُ الْقُوَىٰ

***«O, özündən istəyəni (havadan) danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir. Onu (Peyğəmbərə) çox qüvvətli olan (Cəbrail) öyrətdi».***[2]

İnsanlardan heç kəs ona təhsil verməmişdi, lakin «o elm xadimlərinin müdrikliyinin eybini açdı».

## CİDDİ XƏBƏRDARLIQ

«Bax görürsünüz, - deyə mən pastora müraciət etdim. Peyğəmbərlik Məhəmmədə (s) yaraşır, ölçüsünə görə dəqiq ölçülüb və biçilib. Onların icrasının nəticəsinin Məhəmmədə (s) aid olmasını xüsusi olaraq sübut etməyə ehtiyac yoxdur».

Pastor cavab verdi: «Sizin bütün izahatlarınızın, yozmalarınızın mənası var, bütövlükdə isə onlar az əhəmiyyətlidir, çünki biz xristianlar üçün İsa peyğəmbər Tanrını təcəssüm edəndir və O bizi günah yükündən azad edəndir!»

Mən soruşdum: «Az əhəmiyyətli? Tanrı bu fikirdə deyildir. O çox zəhmət çəkirdi ki, Onun (Özünün)

---

[1] Bu günki günə xüsusi olaraq ərəblər üçün müxtəlif dialektlərdə Ərəb Bibliyasının on dörd variantı hazırlanıb. Bax: «İncil çox dildə» (Bibliya cəmiyyəti tərəfindən yayılır).

[2] «Nəcm» surəsi, ayə 3-5.

xəbərdarlıqları, tövsiyələri qələmə alınsın. Tanrı bilirdi ki, Onun sözlərinə Sizin kimi etinasız yaşayan adamlar olacaq. Odur ki, ciddi xəbərdarlıq gəlir: «Və belə olacaq. Kim mənim sözlərimi – Mənim adımdan peyğəmbərin deyəcəyi sözləri eşitməsə, ona Mən cəza verərəm» (Katoloik Bibliyasında xəbərdarlıq belə sözlərlə bitir: «Mən ondan intiqam alaram»). Bu sizi qorxutmur? Qüdrətli Tanrı intiqamla hədələyir! Hər hansı bir əyyaş bizi hədələyəndə biz qorxudan əsirik, məgər Sz Tanrının Özünün hədəsindən qorxmursunuz?

«Möcüzələrdən möcüzə! Kitabın 18-ci fəslinin 19-cu misrasını gələcək peyğəmbərin məhz Məhəmməd olmasının daha bir təsdiqidir. Sözlərə fikir verin: «...Mənim sözlərimi, hansıları ki, Peyğəmbər mənim adımdan deyəcək...» Kimin naminə deyir Məhəmməd (s)?» Mən Quranı açdım (Yusif Əlinin ingilis tərcüməsi), sonuncu 114-cü surəni tapdım (ən-Nas) və pastora giriş cümləsini göstərdim: «Rəhman və Rəhim olan Allahın adıyla». Və əks ardıcıllıqla götürərər (111, 110...) hər fəsil həmin ifadə ilə başlayır. Və eyni izaha praktiki olaraq demək olar ki, hər səhifədə rast gəlirik, çünki tamamlayıcı (həlledici) surələr qısadır və hər biri təxminən bir səhifədə yerləşir.

Bu peyğəmbərlik hansı müddəaları irəli sürürdü? «...Hansılarını həmin peyğəmbər Mənim adımdan deyəcək». Bəs kimin adıyla, kimin adından danışır Məhəmməd (s). «Rəhman və Rəhim olan Allahın adıyla» Məhəmmədin (s) şəxsində peyğəmbərlik tam mənası ilə həyata keçirilib!»

9-cüdan başqa Quranın bütün surələri müraciət formulası ilə başlayır «Rəhman və Rəhim olan Allahın adıyla». Müsəlman hər bir qanuni işini bu ifadə ilə başlayır. Xristianlar

isə «Atanın, Oğulun və Ruhulqüdsün [1] adıyla» sözləriylə başlayır.

Beşinci kitabın 18-ci fəslindəki peyğəmbərliklə İsanın deyil, Məhəmmədin (s) nəzərdə tutulduğuna dəlalət edən on beşdən çox sübut gətirdim.

## XAÇ SUYUNA SALAN İOHANNA İSAYA QARŞI ÇIXIR

Əhdi Cədidi oxuyarkən görürük ki, o vaxtlar yəhudilər hələ də «Musaya oxşara» (bax: İohanna 19:25) aid müjdənin icra olunacağını gözləyirdilər. İsa özünü yəhudilərin Məsihi elan edəndə, onlar maraqlandılar ki, bəs İliya haradadır? Yəhudilərin paralel daha bir peyğəmbərliyi var idi, orada deyilirdi ki, Məsihdən qabaq artıq ikinci dəfə İliya gəlməli idi». İsa yəhudilərə tərəfdar çıxır: «...Həqiqətən əvvəlcə İliya gəlməli və hər şeyi qaydaya salmalıdır; Ancaq Mən sizə deyirəm ki, o onlara Xaç suyuna salan İohanna barədə danışırmış» (Matfey 17:11-13).

Əhdi Cididə əsaslanaraq deyirik ki, yəhudilər Məsihlər olmaq arzusunda olan hər kəsin sözlərinə inanan adamlardan deyildilər. Məsələdən tamamilə agah olmaq və özlərinin həqiqi Məsihini təyin etmək üçün onlar böyük çətinlikləri dəf etməli olublar. İncil də bunu təsdiq edir: «Budur şəhadəti İohannanın. Yəhudilər Yerusəlimdən levitləri (keşişləri) və ruhaniləri: «Sən kimsən?» sualı ilə göndərmişdilər. O elanından və sözündən dönmədi. Və elan etdi ki, «Məsih deyiləm» (İohanna 1:19-20)

---

[1] Xristian teoloqlarının «Allahın adı» barədə deyəsi sözləri yoxdur. Çünki «Allahın – adı deyil. Bəs Onun Adı nədir? Bax: «Onun adı nədir?» Yenə də həmin müəllifin kitabçası.

(Bu tamamilə təbiidir ona görə ki, eyni zamanda iki Məsih[1] ola bilməzdi, onlardan hansı peyğəmbər idi. Əgər İsa peyğəmbər idisə, İohanna peyğəmbər ola bilməzdi!) «Və ondan soruşdular: «Necə olsun? Sən İliyasan?» O dedi: «Yox (İohanna 1:2). (Bu halda İohanna İsaya qarşı çıxır! İsa deyir ki, İohanna elə «İliyadır» ki, var, İohanna isə onun İsanın dediyi olduğunu inkar edir). İkinsindən biri (İsa yaxud İohanna). İlahi, bizi xilas et! Açıq-aşkar yalan deyir! İsanın özünün şəhadətinə görə Yəhya yəhudilərin peyğəmbərinin ən böyüyü olub: «Həqiqi sözümdür: Arvadların doğduqları sırasında Yəhyadan görkəmlisi olmayıb...» (Matfey 1:11).

Biz müsəlmanlara Xaç suyuna salan İohanna Yəhya peyğəmbər (ə) kimi məlumdur. Biz ona Allahın həqiqi peyğəmbəri kimi hörmət bəsləyirik. Bizə İsa kimi məlum olan müqəddəs İisus da bizim üçün Tanrının qüdrətli elçilərindən biri kimi hörmətlidir. Belə isə biz müsəlmanlar onlardan hansını yalançı hesab edə bilərik? Bu mürəkkəb vəziyyəti araşdırmağı biz xristianların öhdəsinə veririk, ona görə ki, «Əhdi-Ətiqdə», «Əhdi Cədiddə» ziddiyyətlər və fikir ayrılıqları çoxdur, bunlar «İsanın qaranlıq kəlamları»[2] kimi yozulur. Biz müsəlmanları isə seçilmiş yəhudilərin Yəhyanın qarşısına qoyduqları sonuncu sual tam mənasıyla maraqlandırır: «Peyğəmbərsən?» O cavab verdi: «Yox» (İohanna 21).

---

[1] Yəhudilər iki deyil, yalnız bir Məsihi gözləyirlər.

[2] «Tayms» 30 dekabr 1974-ci il jurnalında «Bibliya nə dərəcədə həqiqətdir?» məqaləsinə baxın və «Bibliyada 50 000 xəta» kitabçasının nüsxəsini özünüz üçün pulsuz olaraq sifariş edin, orada «Eveyk» («Oyan!») 8 sentyabr 1957-ci il xristian jurnalından reproduksiya verilib.

## ÜÇ SUAL

Lütfən diqqət yetirin ki, Xaç suyuna salan İohannaya üç müxtəlif və dəqiq sual verilmişdi və onların hər birisinə o nəzərə çarpdırmaqla «Yox» deyə cavab verdi (İohanna 1:21)

Onları sadalayaq: 1. Sən Məsihsən? 2. Sən İliyasan? 3. Sən həmin peyğəmbərsən?

Lakin xristian elm xadimləri nədənsə hesab edirlər ki, burada yalnız ikisi nəzərdə tutulur. Yəhudilər Yəhyaya sual verəndə dəqiq olaraq məhz üç peyğəmbərliyi nəzərdə tutmalarına aid şəkk-şübhələri aradan götürmək üçün məğzi aşağıdakı misralarda olan öyüdləri oxuyaq: «Və onlar soruşdular ondan: «Sən nəyə xaç vurusan, bir halda ki, sən: a) nə Məsihsən, b) nə İliyasan, c) nə Peyğəmbərsən?» (İohanna 1:25).

Yəhudilər ayrıca üç peyğəmbərliyin icrasının intizarında idilər: Birincisinin – İsanın gəlişinin, ikincisinin – İliyanın gəlişinin və üçüncüsünün – O (həmin) peyğəmbərin gəlişinin.

## «O PEYĞƏMBƏR»

Əlifba göstəricisinə malik olan istənilən Bibliyaya baxsaq görərik ki, İncilin 1:25 bölməsində «peyğəmbər», yaxud «o peyğəmbər», «Sənin kimi» - İsa deyil məhz Məhəmməd (s) olduğunu biz artıq açıq-aydın, danılmaz sübutlarla isbat etdik!

Biz müsəlmanlar inkar etmirik ki, İsa «Məsih» olub, bu isə başqa dildə «Xristos»[1] deməkdir. Biz Məsihin gəlişini barədə

---

[1] Bəs «Məsih» necə və nə cür «Xristos» cevrilib? 14-cü bəndə adı çəkilmiş kitabcanı sifariş edin.

müjdələri inkar etmirik. Xristianların dediyinə görə belələri Əhdi Əqiqdə çoxdur. Biz yalnız deyirik ki, 18:18 misrası İsa peyğəmbəri nəzərdə tutmur, lakin müqəddəs Məhəmməd (s) peyğəmbər haqda açıq-aydın müjdədir.

Pastor mənimlə çox nəzakətli görüşdü, dedi ki, söhbət çox maraqlı idi və o istərdi ki, mən bir gün onun dininə mənsub olanlar qarşısında həmin mövzuda məlumatla çıxış edim. O vaxtdan on beş ildən çox keçib, mən hələ də həmin çıxışı etmək şərəfinə nail olmamışam.

Mən inanıram ki, pastorun təklifi tam səmimi idi, lakin insanın beyninə möhkəm həkk olunmuş fikirləri dəyişdirmək, hətta onlar səhv olsalar da çətindir. Bir də ki, kim öz mövqeyini itirmək istəyər?

## CİDDİ SINAQ

Məsihin öz sözlərinə müraciət edib deyirəm: «Pastorun öz çağırışına müvafiq olaraq nəyə görə həqiqətən özünü peyğəmbər kimi qələmə verən hər kəsin ciddi yoxlanması üçün ciddi sınaq təşkil olunmasın? Məsih demişdir: «Onların meyvələrinə görə onları tanıyırmısınız, çaqqal gavalısı ağacından üzüm, ayıpəncəsi kolundan əncir yığsalar da? Hər bir nəcib ağac elə nəcib meyvələr də gətirir, yaman ağac da yaman meyvələr gətirir... Belə ki, onların meyvələrinə görə onları tanıyırsınız» (Matf. 7:16-20).

Siz nə üçün Məhəmmədin (s) təlimini sınağa çəkmək qərarına gəlmirsiniz? Tanrının sonuncu nəsihətində - Müqəddəs Quranda Musanın və İsanın bəşəriyyətə son dərəcə zəruri olan əmin-amanlıq və xoşbəxtlik gətirən təlimlərinin əsil təəccümünü tapa bilərsiniz: «Məhəmmədə (s) oxşar bir şəxsə

müasir bəşəriyyəti təkbaşına idarə etmək nəsib olmuş olsaydı, o, bəşər problemlərini həll etməyə müvəffəq olardı. Bu da öz növbəsində bəşəriyyətə necə də çatışmayan dinclik və xoşbəxtlik gətirərdi». (Corc Bernard Şou)

## ƏN DAHİ!

Həftəlik «Taym»ın 15 iyul 1974-cü il tarixli sayında «Tarixin dahi rəhbərləri» mövzusu ilə əlaqədar müxtəlif tarixçilərin, yazıçıların, hərbiçilərin, biznesmenlərin və başqa peşə sahiblərinin mülahizələri vardır. Bəziləri Hitleri, başqaları Qandini, Buddanı, Linkolnu və başqalarını dahi rəhbərlər hesab edirlər. Bununla yanaşı amerikalı psixoanalitik Jul Masserman dəqiq qiymətləndirmə meyarlarını təklif etdi: Onun dediyinə görə liderlər üç məsələni həyata keçirməlidirlər: **1.** İdarə etdikləri adamlara əmin-amanlıq və xoş güzəran təmin etməlidirlər; **2.** Cəmiyyəti elə qurmalıdırlar ki, orada insanlar özlərini nisbi təhlükəsizlikdə hiss etsinlər; **3.** Onlara inam və etiqad sistemləri təqdim etməlidir. Bu üç meyardan istifadə edərək Masserman tarixi tədqiq edir və Hitleri, Pasteri, Sezarı, Musanı, Konfusini və bir çox başqalarını qiymətləndirir və nəhayət belə bir nəticəyə gəlir: *«Paster və Salk kimi adamlar bir tərəfdən və Makedoniyalı İskəndər, Sezar və Hitler digər tərəfdən ikinci kateqoriyaya və bəlkə də üçüncü kateqoriyaya mənsub liderlərdir, İsa və Budda yalnız üçüncü kateqoriyaya aiddirlər. Yəgin ki, bütün dövrlərin ən dahi rəhbəri Məhəmməddir (s) ki, O hər üç məsələni həyata keçirə bilib, Musa da bunu bir qədər az icra edib».*

Çikaqo Universiteti professorunun (məncə o milliyyətcə yəhudidir) təklif etdiyi obyektiv meyarlarla «Tarixin dahi

rəhbəri» tablosunun qəhrəmanları arasında İsa və Budda yoxdur. Bir də ki, «qəribə» təsadüfə görə Masserman Musanı və Məhəmmədi (s) yanaşı qoyur, beləliklə, İsa Musaya oxşar deyil. Lakin Musaya oxşar Məhəmməddir (s).

Nəhayət, yekunda inanan xristianın, sonra isə onun pərəstiş etdiyi Məsihin sözlərini gətirirəm: «Peyğəmbərin həqiqiliyinin təyin olunmasının başlıca meyarı onun təliminin əxlaqi xassələridir» (professor Dummelov); «Onların meyvələrinə görə tanıyırsınız onları» (İsa peyğəmbər).

## GƏLİN BİRLƏŞƏK

قُلْ يَا أَهْلَ الْكِتَابِ تَعَالَوْا إِلَىٰ كَلِمَةٍ سَوَاءٍ بَيْنَنَا وَبَيْنَكُمْ أَلَّا نَعْبُدَ إِلَّا اللَّهَ وَلَا نُشْرِكَ بِهِ شَيْئًا وَلَا يَتَّخِذَ بَعْضُنَا بَعْضًا أَرْبَابًا مِنْ دُونِ اللَّهِ ۚ فَإِنْ تَوَلَّوْا فَقُولُوا اشْهَدُوا بِأَنَّا مُسْلِمُونَ

***«De: «Ey Kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin! (O kəlmə budur: ) «Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!» Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: «İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq!»***[1]

«Kitab əhli» - Quranda belə hörmətlə adlanırlar yəhudilər və xristianlar. Bu ayə müsəlmanlara göstəriş verir ki, onlar belə bir çağırışla müraciət etsinlər: «Ey Kitab sahibləri! Müqəddəs Kitabın İlahi vəhyinə sadiqliyini israr edən alimlər, savadlı insanlar, insanlar, gəlin birləşək ki, «Allahdan başqasına ibadətdə olmayaq», çünki Ondan başqa heç kim sitayiş olunmağa layiq deyil və ona görə yox ki, «Mənə nifrət edənləri uşaqlarını atalarının üçünçü və dördüncü nəslinə qədər mənsub

---

[1] «Ali-İmran» surəsi, ayə 64.

günahlarına görə cəzalandıran Tanrı, Sənin Allahındır, Təəssübkeşdir» (Sonluq, 20:5). Ona görə ki, O, bizim Tanrımızdır. O, bizi qoruyur, biz ona təvəkkül edirik. O, bizi düz yola sövq edəndir, hər cür mədhlərə, ibadətə və sədaqətə layiqdir.

Yəhudilər və xristianlar yuxarıda qeyd olunmuş Quran ayəsinin hər üç təklifi ilə nəzəri cəhətdən razılaşa bilərdilər. Lakin işdə bu baş tutmur. Əslində Allahın vəhdətindən (Allahu Subhanəhu və Təala), işə bələd ruhanilərin, kahin təbəqələrin (yəhudilərdə mənsəb irsi olub) problemi mövcuddur ki, güya sadə, adi bir adam istər xaqan yaxud papa, kahin yaxud brahman olsun, alimliyindən əlavə olaraq həyata nöqsansızlığından əlavə nədənsə üstünlük iddiasından ola bilər və yaxud hər hansı xüsusi bir vasitə ilə Allahla başqa adamların arasında dura bilər.

## İSLAM KAHİNLİYİ QƏBUL ETMİR!

İslamın bir neçə sözlə ifadə olunmuş əqidəsi bax budur:

قُولُوا آمَنَّا بِاللَّهِ وَمَا أُنْزِلَ إِلَيْنَا وَمَا أُنْزِلَ إِلَىٰ إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَاقَ وَيَعْقُوبَ وَالْأَسْبَاطِ وَمَا أُوتِيَ مُوسَىٰ وَعِيسَىٰ وَمَا أُوتِيَ النَّبِيُّونَ مِنْ رَبِّهِمْ لَا نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِنْهُمْ وَنَحْنُ لَهُ مُسْلِمُونَ

***«(Ey möminlər, yəhudi və xaçpərəstlərin sizi öz dinlərinə dəvət etmələrinə cavab olaraq) belə deyin: «Biz Allaha, bizə nazil olana (Qurana), İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladına (əl-əsbat) göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən (bütün) peyğəmbərlərə verilən şeylərə (möcüzələrə) inanmışıq. Onlardan heç birini***

***digərindən ayırmırıq. Biz ancaq Allaha boyun əyən müsəlmanlarıq!»***[1]

Müsəlmanların mövqeyi aydındır. Müsəlman müstəsna ona məxsus olan din sahibi olmaq iddiasında deyildir. İslam nə təriqət, nə də etnik din deyil. İslamın nəzərincə bütün din vahiddir (yeganədir), çünki həqiqət yeganədir. Bu elə həmin o dindir ki, qədim dövrün bütün peyğəmbəri onu təbliğ etmişlər.

شَرَعَ لَكُمْ مِنَ الدِّينِ مَا وَصَّىٰ بِهِ نُوحًا وَالَّذِي أَوْحَيْنَا إِلَيْكَ وَمَا وَصَّيْنَا بِهِ إِبْرَاهِيمَ وَمُوسَىٰ وَعِيسَىٰ ۖ أن اقيموا الدين و لا تتفرقوا فيه

***«Allah: «Dini doğru-dürüst tutun (qoruyub saxlayın), onda ayrılığa düşməyin!» – deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya, və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi».***[2]

Bütün ilahi kitablar da bu həqiqəti öyrədir. Əslində bu Tanrı iradəsinin, Tanrı istəyinin dərk edilməsi və sevinclə Ona qoşulmaqdır. Əgər kimsə başqa bir din axtarırsa, o öz zatına xəyanət edir, çünki Tanrı tələblərinə, hikmətli İlahiyə xəyanət edir.

**Assalamu aleykum və rəhmətullahi**
**və bərəkatuh**

[1] «Bəqərə» surəsi, ayə 136.
[2] «Şura» surəsi, ayə 13.

## MÜNDƏRƏCAT

BİBLİYA MƏHƏMMƏD PEYĞƏMBƏR (S) HAQQINDA NƏ DEYİR
ROMA PAPASI, YAXUD KİSSİNCER?
ON ÜÇ – UĞUR ƏDƏDİDİR
BƏS NİYƏ HEÇ NƏ?
ÖZ ADI İLƏ HEÇ BİRİ
PEYĞƏMBƏRLİK NƏDİR?
MUSAYA BƏNZƏR PEYĞƏMBƏR
ÜÇ FƏRQ
ATA VƏ ANA
DOĞULUŞUN MÖCÜZƏSİ
NİGAH ƏLAQƏLƏRİ
İSANI ÖZ XALQI QƏBUL ETMƏYİB
BU ALƏMDƏN OLMAYAN SƏLTƏNƏT
HEÇ BİR YENİ QANUN
ONLAR NECƏ ÖLDÜLƏR?
GÖYLƏRDƏ RAHATLAMA
İSMAYILIN İLKİNLİYİ
ƏRƏBLƏR VƏ YƏHUDİLƏR
SÖZLƏRİN DİLLƏ İFADƏSİ
ETİMADA LAYİQ DƏLİL
SAVADSIZ PEYĞƏMBƏR
CİDDİ XƏBƏRDARLIQ
XAÇ SUYUNA SALAN İOHANNA İSAYA QARŞI ÇIXIR
ÜÇ SUAL
«O PEYĞƏMBƏR»
CİDDİ SINAQ
ƏN DAHİ!
GƏLİN BİRLƏŞƏK
İSLAM KAHİNLİYİ QƏBUL ETMİR!